**ƏMƏLIYYAT SONRASI TƏLİMATLAR – DİŞİN ÇƏKİLMƏSİ**

**ƏMƏLİYYAT OLUNMUŞ NAHİYƏNİ ZƏDƏLƏMƏYİN**: Növbəti bir neçə gün, xüsusilə də ilk 24 saat ərzində, qanın laxtalanması və təbii sağalma prosesinə başlaması üçün orqanizmə şərait yaratmaq olduqca zəruridir. Çubuqla vurma, sorma və siqaret çəkmə laxtalanmanı poza bilər. Hər hansı iti əşyanın yaraya dəyməsinə imkan verməyin (xırçıltılı qida, diş çöpü, yemək ləvazimatları). 24 saat ərzində digər tərəflə çeynəyin.

**QANAXMA**: Klinikadan çıxarkən, qanaxmaya nəzarət edə bilmək üçün dişinizi tənzifdən hazırlanmış kompressə sıxın. Ən azı 30 dəqiqə ərzində dişinizi tənzifin üzərinə yüngülcə sıxın. Bu vaxt ərzində onu dəyişməyin; diş yuvasında laxtalanma yaranana qədər, kompresi tərpətmək olmaz. 30 dəqiqədən sonra onu çıxara bilərsiniz. Hələ də qanaxma hiss edirsinizsə, növbəti 30 dəqiqə ərzində başqa tənzif və ya çay paketindən istifadə edə bilərsiniz. Tüpürcəkdə olan azacıq qan tüpürcəyinizin tamamilə qırmızı görünməsinə səbəb ola bilər. Bu normaldır və prosedurdan sonra, günün qalan hissəsində müşahidə edilə bilər.

**SİQARET ÇƏKMƏK**: Əməliyyatdan sonra siqaret çəkmək olmaz. Bədəninizdəki siqaret tüstüsünün kimyəvi maddələri sağalma prosesinə və əməliyyatın uğurlu nəticələnməsinə son dərəcə mənfi təsir göstərə bilər. Bundan əlavə, siqaret çəkərkən tüstünün udulması laxtalanmanı poza bilər. Siqaret çəkən şəxslər diş çəkimi sonrası diş yuvasında ağrılı alveolit riskinə məruz qala bilərlər.

**AĞRI**: Əməliyyatdan sonra bir qədər narahatçılığın olması normaldır. Ağrını azaltmaq üçün allergik reaksiya olmadığı təqdirdə Tylenol, Aksen Forte, Nurofen qəbul edin və ya rahatlanmaq üçün yatmazdan 3-4 saat əvvəl aspirin olmayan ağrıkəsici qəbul edin. Onu, keyimə keçmədən əvvəl qəbul edin. Ağrıkəsici vasitələrdən istifadəyə göstəriş olarsa, onu təlimatda göstərildiyi qaydada qəbul edin. Təlimatdakı dozadan artıq istifadə etməyin. Dərmanın qida və ya süd ilə qəbul olunması, mədə pozuntusunun azaltmasına kömək edəcək. Ağrıkəsici qəbul etdikdə maşın və ya ağır texnika idarə etməyin. Ağrıkəsici dərman vasitələri qəbul etdikdə, spirtli içki içməyin.

**ÜRƏKBULANMA**: Əsasən boş mədəyə ağrıkəsici vasitələr qəbul etdikdə, bu hal tez-tez baş verir. Hər həbi içməzdən öncə yüngül qidalansanız və ağrıkəsicini bol su ilə qəbul etsəniz ürəkbulanma azalar.

**ŞİŞMƏ**: Üzdə əməliyyat olan hissəyə buz kisəsi qoymaq şişməni azaldır. 15 dəqiqə saxlayın, 15 dəqiqədən sonra götürün. Birinci günün ilk 2 (iki) saatı ərzində bu proseduru təkrarlayın.

**KEYİMƏ**: Yerli keyləşdirici, klinikanı tərk etdikdən sonra sizin bir neçə saat ərzində keyimənizə səbəb olacaq. Keyimiş hissəni dişləməmək, çeynəməmək, sıxmamaq və ya zədələməmək üçün ehtiyatlı olun. Bəzən, dişin çəkilməsi altı həftə və ya daha uzun müddətdə davam edən keyimə və ya sancmaya səbəb olur.

**FIRÇALAMA**: Əməliyyatdan sonrakı ilk 8 saat ərzində dişlərinizi fırçalamayın. Bundan sonra, dişlərinizi yüngülcə fırçalaya bilərsiniz, lakin 3 gün ərzində əməliyyat olunmuş nahiyəni fırçalamaq olmaz.

*Ünvan:* Adil İsgəndərov küçəsi 4, AZ1000, Bakı, Azərbaycan
*Telefon:* +99412 492-08-44 / *Mobil:* +99450 378-97-20
*Email:* info@drsmiles.az / *Web:* www.drsmiles.az

**QARQARA:** Diş çəkildikdən sonra 24 saat müddətində ağızı yaxalamaq olmaz. Yaxalama, düzgün sağalma üçün mühüm əhəmiyyətə malik olan  qan laxtasının formalaşmasını poza bilər. Bu, qanaxmaya və diş çəkimi sonrası diş yuvasının alveoliti riskinə gətirib çıxara bilər. 24 saat sonra, ılıq duzlu su məhlulu ilə ağzınızı yaxalamağa başlaya bilərsiniz (1/2 çay qaşığı duz + 1/2 çay qaşığı soda + 200 qr qaynanmış ılıq su). Sənaye üsulu ilə hazırlanmış ağız yaxalayıcı vasitələrdən istifadə etməyin.

**PƏHRİZ:** İlk iki gün ərzində yumşaq qidalar qəbul edin. Düzgün və balanslaşdırılmış pəhriz saxlayın. İlk iki gündən sonra, mümkün qədər tez bir zamanda, müntəzəm yediyiniz normal qidalara qayıdın. Bol su için. 48 saat ərzində spirtli içki qəbul etməyin.

**HƏRƏKƏT:** Klinikadan çıxdıqdan sonra, günün qalan hissəsində gərgin işlə məşğul olmayın və istirahət edin. Qan təzyiqinin aşağı vəziyyətdə saxlanması qanaxmanı azaldacaq və sağalmaya kömək edəcək.

**ANTİBİOTİKLƏR:** Əgər sizə antibiotik yazılıbsa, onları təyin olunmuş qaydada sona qədər istifadə edin. Qadınlar: bəzi antibiotiklər hamiləlik əleyhinə həblərin effektivliyini aşağı sala bilər. Növbəti iki ay ərzində hamiləliyə qarşı alternativ metodlardan istifadə edin.

**SİNUS:** Əgər prosedur zamanı sinus patoloji prosesə məruz qalıbsa, o zaman, sizə bir həftə ərzində burnunuzu silmək və ya nəfəsli musiqi alətində çalmaq olmaz. Durğunluq əleyhinə dərman vasitələrindən istifadə məsləhət görülə bilər.

**MÜAYİNƏ:** Tikişlərin sökülməsi və ya yaranın müayinə olunması üçün klinikaya qayıtmalı ola bilərsiniz.
Aşağıdakı hallarda, stomatoloqunuza müraciət edin:

- qarşısı alınmaz ağrı
- həddən artıq və ya güclü qanaxma
- aydın hiss olunan qızdırma
- prosedurdan bir neçə gün sonra baş  verən həddən artıq qızartılı şişmə
- dərman preparatlarının verdiyi reaksiyalar, xüsusilə səpgi, dəri qaşınması və ya nəfəs orqanlarının pozulması problemləri

*Bu təlimatlara ciddi əməl etmək sizin rahatlığınıza və yaranın ağrısız şəkildə sağalmasına böyük köməklik göstərəcək. Əgər təlimatların hər hansı birinə riayət edilməzsə, siz özünüzü daha narahat hiss edə bilər və prosedurun uğurlu alınmasına mənfi  təsir göstərə bilərsiniz.*

*Ünvan:* Adil İsgəndərov küçəsi 4, AZ1000, Bakı, Azərbaycan
*Telefon:* +99412 492-08-44 / *Mobil:* +99450 378-97-20
*Email:* info@drsmiles.az / *Web:* www.drsmiles.az